


**Qiymətli kağızlar bazarının infrastruktur təşkilatı kimi MDM xarici depozitarlarla təmas yaradaraq beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Bu məqsədlə MDM bir sıra xarici həmkarları ilə işgüzar əlaqələr yaratmış, qarşılıqlı fəaliyyət üçün zəminlər müəyyən etmişdir.**

**Azərbaycan qiymətli kağızlarının beynəlxalq bazarlara çıxışını təmin etmək məqsədilə 2006-cı ildən MDM Milli Nömrələyici Agentliklər Assosiyasiyası (ANNA) ilə qlobal əməkdaşlığa dair müqavilə imzalamış və Azərbaycan üzrə Milli Nömrələyici Agentlik olaraq səlahiyyətləndirilmişdir. Bu status müqabilində MDM Azərbaycanda emissiya edilən qiymətli kağızlara ISIN beynəlxalq eyniləşdirmə kodları verməyə başlamışdır.**

**Azərbaycan Respublikasının**
**Milli Depozit Mərkəzi**

Bakı ş., Babək pros. 12 A, Babək plaza,
blok C, 9-cu mərtəbə www.mdm.az
e-mail: office@mdm.gov.az

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ DEPOZİT MƏRKƏZİ




Azərbaycan fond bazarının infrastrukturunda mərkəzi mövqedə olan Milli Depozit Mərkəzi qiymətli kağızların saxlanmasını, onlar üzərində mülkiyyət hüquqların qeydiyyatını və qiymətli kağızlar üzrə ticarətdən sonrakı hesablaşmaları həyata keçirir.

- **Mərkəzi Depozitar**
- **Mərkəzi Reyestrsaxlayıcı**
- **Kliring təşkilatı**
- **Milli Nömrələyici Agentlik**

**Qeydiyyata alınmış şəxsin hesabından çıxarış verilməsi üçün tələb olunan sənədlər:**

***Fiziki şəxslər üçün:***

- Ərizə;
- Şəxsiyyəti təsdiq edən sənəd;
- Şəxsiyyəti təsdiq edən sənəd və ya ünvan dəyişdikdə dəyişikliyi təsdiq edən sənəd;
- Soyadı dəyişdikdə - nigah haqqında şəhadətnamə, məhkəmənin qərarı .

***Hüquqi şəxslər üçün:***

- Ərizə;
- Hüquqi şəxsin qanuni təmsilçisinin təyin olunması barədə sənədin surəti;
- Rəhbər şəxsin şəxsiyyət vəsiqəsinin surəti.

**Notariat kontorunda bağlanmış alqı-satqı əqdinin qeydiyyatı zamanı tələb olunan sənədlər:**

- Alqı-satqı müqaviləsinin əsli və ya notarial qaydada təsdiq edilmiş surəti;
- Tərəflərin səxsiyyətini təsdiq edən sənədlər (hüquqi şəxs olduqda rəhbər şəxsin səlahiyyətlərini təsdiq edən sənəd);
- Birjadankənar əqdlərə dair ötürücü sərəncamlar**.**

**Birjada keçirilən alqı-satqı əqdinin qeydiyyatı zamanıı tələb olunan sənədlər:**

- Birja əqdlərinə dair hesab üzrə sərəncam

**Vərəsəlik əqdinin qeydiyyata alınması üçün tələb olunan sənədlər:**

- Vərəsəlik şəhadətnaməsinin əsli və ya notarial qaydada təsdiq edilmiş surəti;
- Varisin səxsiyyətini təsdiq edən sənəd;
- Ödənişdən azad ötürülmə tapşırığı.



**Bağışlama/Dəyişmə əqdinin qeydiyyata üçün tələb olunan sənədlər:**

- Bağışlama müqaviləsinin əsli (və ya notarial qaydada təsdiq edilmiş surəti);
- Tərəflərin səxsiyyətini təsdiq edən sənədlər (hüquqi şəxs olduqda rəhbər şəxsin  səlahiyyətlərini təsdiq edən sənəd);
- Ödənişdən azad ötürülmə tapşırığı.

**Məhkəmə qərarı ilə mülkiyyət hüquqlarının ötürülməsi üçün tələb olunan sənədlər:**

- Məhkəmənin qərarı;
- İcra vərəqəsi.

**Qiymətli kağızların girov öhdəlikləri ilə yüklənməsi zamanı tələb olunan sənədlər:**

- Ərizə;
- Girov müqaviləsi.

**Qiymətli kağızların girov öhdəliklərindən azad olunması zamanı tələb olunan sənədlər:**

- Girovsaxlayıcının öhdəliyin yerinə yetirilməsi barədə məktubu.